# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**«2011-2013-cü illər üzrə Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların ixracının stimullaşdırılmasına dair Tədbirlər Planı»nın təsdiq edilməsi barədə**

«Naxçıvan Muxtar Respublikasının 2010-cu il dövlət büdcəsi haqqında» Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Qərarının tətbiq edilməsi barədə» Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 28 dekabr tarixli Fərmanının 5-ci bəndinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır**:

1. «2011-2013-cü illər üzrə Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların ixracının stimullaşdırılmasına dair Tədbirlər Planı» təsdiq edilsin (əlavə olunur).

2. Bu qərarın 1-ci bəndi ilə təsdiq edilmiş Tədbirlər Planında nəzərdə tutulan müddəaların müəyyən edilmiş müddətlərdə icrasının təmin edilməsi üçün aidiyyəti icra hakimiyyəti orqanları öz səlahiyyətləri daxilində zəruri tədbirlər həyata keçirsinlər.

3. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi Naxçıvan Muxtar Respublikasının İqtisadi İnkişaf Nazirliyinə həvalə edilsin.

4. Aidiyyəti dövlət orqanları Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə yarımillik və illik məlumatları hesabat dövrü başa çatdıqdan sonra Naxçıvan Muxtar Respublikasının İqtisadi İnkişaf Nazirliyinə təqdim etsinlər.

5. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri**: **Ə.Baxşıyev**

23 fevral 2011-ci il

№ 36

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 23 fevral tarixli 36 nömrəli qərarı ilə təsdiq edilmişdir

2011-2013-cü illər üzrə Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların ixracının stimullaşdırılmasına dair

# T Ə D B İ R L Ə R   P L A N I

| № | Tədbirin adı | İcraçılar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| 1. İxrac mallarının istehsalının stimullaşdırılması | | | |
| 1.1 | İxracyönümlü müəssisələrdə müasir standartlara uyğun şəraitin yaradılması və istehsal prosesinin qabaqcıl texnologiyalar əsasında təşkili məqsədilə sahibkarlıq subyektlərinin dəstəklənməsi | İqtisadi İnkişaf Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | Mütəmadi |
| 1.2 | İxrac məqsədli məhsulların müasir standartlar səviyyəsində qablaşdırılmasının təmin edilməsi, keyfiyyət və rəqabət qabiliyyətinin artırılması üzrə layihələrin maliyyələşdirilməsinə dair təkliflərin hazırlanması | İqtisadi İnkisaf Nazirliyi, Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikası Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi | 2011 |
| 1.3 | Məhsul və xidmətlərin ixracının sığortalanması | Maliyyə Nazirliyi, | 2011 |

| | | | |
|---|---|---|---|
| | mexanizminin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması | İqtisadi İnkişaf Nazirliyi | |
| 1.4 | Muxtar respublikadan ixrac olunan xammal və yarımfabrikatların hazır məhsul istehsalınadək çatdırılmasının stimullaşdırılması | İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | Mütəmadi |
| 2. **İ**xracı**n** **i**nfrastruktur t**əmi**nat**ını**n yax**şı**la**şdırı**lmas**ı** | | | |
| 2.1. | Sənaye zonalarının (sənaye klasterlərinin) və azad zonaların (sərhədyanı ticarət zonaları və s.) yaradılması üzrə tədbirlərin həyata keçirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2011-2013 |
| 2.2 | İxrac olunan malların saxlanması, daşınması, yüklənməsi və boşaldılması xidmətlərinin rəqabət qabiliyyətinin yüksəldilməsinin dəstəklənməsi | İqtisadi İnkişaf Nazirliyi | Mütəmadi |
| 2.3 | Potensial ixrac bazarı ölkələrində Naxçıvan ticarət evlərinin yaradılması üzrə tədbirlərin həyata keçirilməsi | İqtisadi İnkişaf Nazirliyi, | 2011-2013 |
| 3. **Keyfiyyətə** n**ə**zar**ə**t s**i**stem**ini**n t**ə**km**ill**ə**s**d**iri**lm**əsi** | | | |
| 3.1. | Muxtar respublika iqtisadiyyatının prioritet sahələri üzrə regional standartların tətbiqi məqsədilə müvafiq tədbirlərin görülməsi | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2011-2013 |
| 3.2. | Əsas ixrac mallarının texniki və təhlükəsizlik normalarına uyğunluğunun yoxlanılması üçün mövcud | İqtisadi Inkişaf Nazirliyi, Standartlaşdırma, | 2011-2012 |

| | | | |
|---|---|---|---|
| | laboratoriyaların təkmilləşdirilməsi və akkreditasiyadan keçirilməsi | Metrologiya və Patent üzrə Dövlət Komitəsi | |
| 3.3. | Sınaq və kalibrləmə laboratoriyalarının və sertifikatlaşdırma orqanlarının akkreditasiyası sisteminin potensialının artırılması | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, İqtisadi İnkişaf Nazirliyi | 2011-2012 |
| 3.4. | Keyfiyyətin idarə olunması üzrə özəl şirkətlərin yaradılmasının və onların beynəlxalq akkreditasiyadan keçirilməsinin dəstəklənməsi | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, İqtisadi İnkişaf Nazirliyi | 2011-2012 |
| **4. İxracın təşviqi və maarifləndirmə** | | | |
| 4.1 | İxracyönümlü məhsul və xidmətlərin xarici bazarlarda təşviqi məqsədilə müvafiq beynəlxalq tədbirlərdə muxtar respublika ixracatçılarının iştirakının təmin edilməsi, ixrac üçün potensial və perspektiv sayılan ölkələrdə keçirilən sərgilərdə muxtar respublikada istehsal olunan məhsulların nümayişi və təşviqat tədbirlərinin həyata keçirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi | Mütəmadi |
| 4.2 | İxracatçı sahibkarlıq subyektləri və onların istehsal etdiyi məhsullar, mövcud və potensial xarici bazarlardakı vəziyyət, eləcə də həmin bazarlara giriş üçün müəyyən edilmiş tələblər (müvafiq ölkələr üzrə əmtəə və xidmətlər bazarının konyukturu, ticarət qanunvericiliyi, gömrük sistemi, mövcud idxal-ixrac güzəştləri, | İqtisadi İnkişaf Nazirliyi, Dövlət Gömrük Komitəsi | 2011-2012 |

| | | | |
|---|---|---|---|
| | qadağaları və digər zəruri məlumatlar) barədə məlumatlandırma sisteminin yaradılması | | |
| 4.3 | Əsas ixrac məhsulları və ixracyönümlü müəssisələr barədə məlumatların kataloqunun yaradılması, kütləvi informasiya vasitələrində və internetdə yayılması | İqtisadi İnkişaf Nazirliyi | Mütəmadi |
| 4.4 | İxrac fəaliyyətinin genişləndirilməsi və müəssisələrdə keyfiyyətin idarə olunması sahələri üzrə sahibkarların maarifləndirilməsi, həmçinin ixracyönümlü müəssisələrin kadr potensialının yüksəldilməsi məqsədilə təhsil-treninq proqramlarının təşkili ilə bağlı tədbirlərin həyata keçirilməsi | İqtisadi İnkişaf Nazirliyi | Mütəmadi |